İlk öncə mən Təhsil və Səhiyyə komitəsinin iclaslarına qatılan, təhsildəki problemləri dilə gətirən hər bir millət vəkilinə öz minnətdarlığımı bildirirəm. Edəcəyim məruzə həm də onların səsləndirdiyi dəyərli fikirlərin cəmləşmiş və tamamlanmış variantıdır.

## Müəllim və onun cəmiyyətdəki nüfuzu

Müəllim kimdir? Normal ölkələrdə, normal cəmiyyətlərdə bu sualı vermək və onu cavablandırmağa çalışmaq bəlkə də insanlarda gülüş doğurardı, çünki onlar müəllimin kim olduğunu yaxşı bilirlər. Lakin dəyərləri ayaqlar altında olan Azərbaycan cəmiyyəti müəllimin kim olduğunu unudub, bu cəmiyyətin fərdləri qarşılarında gördükləri hər kostyumluya “müəllim” deyə müraciət edir, o kostyumlu uzunqulaq olsa da belə. Bu isə sonda çoxsaylı anlaşılmazlıqlara, yüksək dəyərlərin tapdaqaltı olmasına gətirib çıxarır. Bəs əslində müəllim kimə deyilir? Diqqət!

Əsas vəzifəsi şagirdlərə və tələbələrə bilik vermək, onların intellektual qabiliyyətlərini inkişaf etdirmək, onlarda əxlaqi keyfiyyətlərin formalaşdırılması ilə məşğul olan bir peşəkara “müəllim” deyilir. Həmin peşəkar təkcə öz fənnini tədris etmir, o həm də uşağın şəxsiyyət kimi yetişdirilməsində və inkişafında, tədris etdiyi proqramın praktiki mənimsənilməsində və uşağın müstəqil həyata hazırlanmasında önəmli rol oynayır. Müəllim biliklərin ötürülməsi ilə yanaşı, gənc nəslin dünyagörüşünün və dəyərlərinin formalaşmasında mühüm sosial vəzifə daşıyıcısıdır. Məhz müəllimlərin səyi nəticəsində cəmiyyət, dövlət müxtəlif sahələr üzrə hazırlanmış, ölkənin elminin, iqtisadiyyatının və mədəniyyətinin inkişafına töhfə verən mütəxəssislər əldə edir.

Beləliklə, müəllim sadəcə bir peşə deyil, daima özünü inkişaf etdirən, uşaqlara, tələbələrə elm və bilik aşılayan, onlara diqqət və sevgi nümayiş etdirən, öz fəaliyyəti ilə cəmiyyət qarşısında xüsusi məsuliyyət daşıyan bir missionerdir.

Odur ki, bir kimsəyə “müəllim” deyə müraciət etməmişdən öncə bir düşünün, qarşınızdakı insan sadaladığım keyfiyyətlərin heç olmasa birinə malikdirmi?

Övladları, nəvələri məktəbə gedən, tələbə olan hər kəs ölkədə təhsilin bərbad vəziyyətdə olmasından danışır. Məktəbləri, ali təhsil ocaqları, yetərli sayda müəllimləri olan bir dövlətdə təhsil sistemi inkişaf etmək əvəzinə bəs niyə degradasiyaya uğrayır? Geridönməz hal almış bu proses müəllimin nüfuzunun aşağı salınmasından başladı.

Əvvəlcə kapitalizmin ən murdar formasını mənimsəmiş Azərbaycan kimi ölkələrdə təhsilə “vətəndaşa göstərilən xidmət” statusu verildi. Bundan əvvəl Sovet dönəmində məktəb “təlim-tədris ocağı” adlandırılırdı, yəni məktəb həm təhsil, həm tərbiyə verməklə məşğul idi. Xidmət isə, bildiyimiz kimi, pul qarşılığında həyata keçirilən öhdəlikdir. Bu gün təhsil də vətəndaşa göstərilən xidmət növlərinə aid edilir. Beləliklə, yalnız pulu olan uşağını bağçaya, məktəbə yollaya bilir. Məktəbə gedə bilməyən uşaqlar üzərində isə dövlətin heç bir nəzarəti yoxdur. (Bu da ciddi bir məsələdir!) Pul qarşılığında alınan təhsil xidmətində isə uşağa “güldən ağır” söz deyilə bilməz. Çünki o məktəbə pulla təhsil almağa gəlib, tərbiyə almağa yox. Cəmiyyətdə məqsədyönlü şəkildə yaradılmış bu düşüncə müəllimin öz peşə sahəsi ilə bağlı olan səlahiyyətlərinin həyata keçirilməsində əngəllər yaradır, onu dar çərçivəyə salır. Nəticədə müəllimin həm şagird, həm tələbə, həm valideyn, həm cəmiyyət qarşısında olmalı olan xüsusi nüfuzu, statusu heçə dönür. Çünki o bir xüsusi hörmətə, etirama layiq birisi yox, sadəcə olaraq pul qarşılığında cəmiyyətə

təhsil xidməti göstərən bir alverçiyə çevrilib. Nə yazıq ki cəmiyyətimizdə təhsilə və müəllimliyə qarşı bu düşüncə və yanaşma uzun illər aparılan məkrli siyasət sayəsində "uğurla" dərinləşməkdə davam edir.

Müəllimliyi nüfuzdan salmağa yönəlik növbəti addım daimi (ştat) işçi sayılan müəllimlərin belə işə müddətli əmək müqaviləsi ilə qəbul edilmələri, bundan əlavə onların (digər dövlət işçiləri kimi) məcburi olaraq hakim partiyaya üzv etdirilmələri oldu. Bununla da narazı olduqları məsələlərlə bağlı etiraz etmək hüququ müəllimlərin əlindən alındı. Ona görə də bu gün problemlər içində boğulan müəllimlərin narazı səslərini eşitmirik, çünki hamısı qorxu, təhdid, şantaj altındadırlar. Dərs saatlarının, maaşlarının az olmasına, sertifikasiya imtahanındakı uğursuz nəticələrə görə işdən çıxarıldıqlarına baxmayaraq onlar susmağa məhkum ediliblər. Çünki danışsalar 1-3 ilə əmək müqavilələrinin müddəti bitəcək və həmin müqavilələr bir daha uzadılmayacaq, danışsalar, dərs saatları azaldılacaq, ən önəmlisi, danışsalar, üzvləri olduqları partiyanın apardığı "dövlət" siyasətinə qarşı çıxmış olacaqlar və mütləq şəkildə işdən qovulacaqlar.

Müəllimin nüfuzuna əsas zərbəni isə maaşlarının az olması vurur. Bu onları digər vəsitələrlə qazanc əldə etməyə vadar etdirir. Kimi kosmetik vasitələr, kimi qab-qacaq, kimi pal-paltar satmağa məcbur olur. Və bu işlə birbaşa məktəbdə məşğul olmaları onları şagirdləri qarşısında xırda alverçiyə çevirir. Bir cavan rus müəlliminin "Müəllimlərin maaşları nə vaxt artacaq?" sualına Rusiyanın eks-prezidenti Dmitriy Medvedev qarşısındakını alçaldıcı bir tərzdə "Kim sizə bizneslə məşğul olmağa imkan vermir ki?!" cavabı vermişdi. Aldığı cavabdan çaşqınlıq yaşayan, sözün əsl mənasında pərt olmuş həmin cavan müəllimin üz ifadəsi indiyədək gözümdən getmir. Gecikmiş kapitalizmin murdar formasını yaşayan ölkələrdə müəllim həm də biznesmen (kobud desək, alverçi) olmağı öyrənməli imiş. Biznesmenin isə cəmiyyətdə nüfuzu əksər hallarda yüksək olmur, çünki o yalnız öz maraqlarını düşünən və istənilən yolla kapitalını artırmağa çalışan birisidir. Müəllim isə həyatda keçdiyi əzablara baxmayaraq dərs dediyi uşaqlar kimi təmizliyini, saflığını qorumağı bacaran birisidir. Deməyim odur ki, normalda müəllimliklə və bizneslə tamam fərqli düşüncələrə malik olan insanlar məşğul olmalıdır. Bir adam bu peşələrinin hər ikisinə yiyələnməyə çalışanda nəticə faciəvi olur.

Maaşlarının az olması müəllimlərin bir qisminin hakimiyyət tərəfindən cüzi məbləğ pul qarşılığında seçkilərin saxtalaşdırılmasında iyrənc şəkildə istifadə olunmalarına gətirib çıxardı. Müəyyən bir vaxta qədər oyunbazlıqlarda istifadə edildilər və lazımsız əşya kimi kənara atıldılar. Bu gün artıq alt paltarlarda bülletten daşımağa ehtiyac yoxdur. Son prezident və parlament seçkilərində seçki oyunbazlığında yeni eraya qədəm qoyuldu – bu dəfə Əliyev rejimi seçkiləri məktəblərə direktor qismində təyin etdiyi əxlaqsız qadınlar vasitəsilə saxtalaşdırdı. Seçiciyə bülletenin surəti (kopiyası) verildi, original, hakimiyyətə sərf edən formada doldurulmuş bülletenlər isə direktorların otaqlarında gizlədilmiş seçki qutularında saxlanıldı. Günün sonu qutular yerdəyiş edildi və bundan sonra "səslərin sayılması" həyata keçirildi. Amma yenə də adı batan, cəmiyyətin gözükölgəli qrupuna çevrilən müəllim oldu. Çünki bu iyrənc prosesə rəhbərlik edən direktor pedaqoq heyətinin həm rəhbəri, həm də üzvü sayılır.

Ərəstun Oruclunun dediyi kimi "tabuta vurulan sonuncu mismar" isə 23 000-dən çox müəllimin uğursuzluğu ilə nəticələnən setrifikatlaşdırılma imtahanı oldu. Bəli, müəllimlərin sertifikasiya imtahanlarına təhsilin məhvi istiqamətində illər uzunu aparılan

məkrli siyasətin davamı və bəlkə də finalı kimi baxmaq lazımdır. Keçən ilki imtahandan sonra 5 000-dən çox müəllimin, bu ilki imtahanda sonra 23 000-dən cox müəllimin işsiz qalması müəllimlərə qarşı aparılan soyqırım siyasətinin kulminasiyası idi.

Nəticə olaraq aydın görünən odur ki, müəllimi bu dərəcədə həm çirklənmiş, həm aşağılanmış, həm küncə sıxışdırılmış olan təhsil sistemi çöküşə məhkumdur.

Bəs ölkə üzrə dövlət səviyyəsində müəllimin nüfuzunu necə bərpa etmək olar? Dövlət siyasəti və qanunvericilik bu sahədə nə etməlidir?

1. Ölkədə işsiz müəllim olmamalıdır. Müəllimin təqaüd yaşından tez işsiz qalması onun nüfuzuna vurulan ən böyük zərbədir. Yalnız hər bir fərdi mükəmməlləşmiş, ilahiləşmiş bir cəmiyyətdə müəllim işsiz ola bilər. Amma nə qədər ki bəşərriyyət inkişaf yolunu keçməkdə davam edir, müəllimlik ən çox iş saatlı, kadr çatışmazlığı ilə cəmiyyətə haray salan peşə olmalıdır. Əgər bir dövlətin hədəfi və strategiyası müsbət tərəfə inkişafdırsa, həmin dövlətdə işsiz müəllimin olması dövlət siyasətinə ziddir.

2. Müəllimlərin iş şəraitlərinin yaxşılaşdırılması, yəni maaşların artırılması, məktəblərin infrastrukturlarının müasir standartlara uyğunlaşdırılması, sinif otaqlarının və auditoriyaların müasir avadanlıqlarla təciz edilməsi vacibdir. O cümlədən, dövlət səviyyəsində müəllimlərə maddi dəstək proqramları  təşkil edilməlidir. Bu tip tədbirlər həm müəllimin cəmiyyətdə dövlət səviyyəsində nüfuzunu qaldırar, həm də bu peşəni peşə seçimində olan gənclər üçün daha cəlbedici edər.

3. Müəllimlərə digər vətəndaşlar kimi partiya seçimində azadlıq verilməlidir və onların seçki proseslərində iştirakı adi vətəndaş səviyyəsindən artıq olmamalıdır.

4. Ölkə üzrə müəllimlərin ixtisasının və peşəkarlıq səviyyəsinin mütəmadi olaraq artırılması proqramları həyata keçirilmədir. Dərs dedikləri sahələrdə olan yeni tədris metodikaları ilə tanış olmaları üçün onlar vaxtaşırı müxtəlif kurslardan keçməlidirlər, treninqlərdə, seminarlarda, konfranslarda iştirak etməlidirlər. Bu onlara həm yeni biliklər əldə etdirəcək, həm də öz təcrübələri ilə bölüşmək imkanı yaradacaq. Yəni professional mühitdə müəllimlərin bir biriləri ilə ünsiyyətləri yüksək səviyyəyə qaldırılmalıdır. Bu da birbaşa dövlət tərəfindən təşkil olunmalıdır.

5. Gənc müəllimlər iş mühitinə uyğunlaşmaqda, adaptasiyada yaşlı, təcrübəli müəllimlərin həm peşəkar, həm mənəvi dəstəyini hiss etməlidirlər. Yalnız bu dəstək sayəsində daha güclü, sayılıb-seçilən pedaqoqlar nəsli yetişə bilər.

6. Korporativ mədəniyyətin formalaşması (yəni pedaqoq heyətin içində qarşılıqlı hörmətin artması) və məktəblərinin imicinin qaldırılması önəmlidir. Şagirdlərin olimpiadalarda, müsabiqələrdə, beynəlxalq yarışlarda qazandıqları uğurları təbliğ etməklə təkcə məktəbin rəhbərliyinin deyil, həmin məktəbdə çalışan müəllimlərin də nüfuzunu artırmaq olar.

7. Peşə cəmiyyətlərinin yaradılması istiqamətində işlər aparmaq. Müxtəlif məktəblərin müəllimləri mütəmadi olaraq bir-birləri ilə əlaqədə olmalıdırlar, təcrübələri ilə bölüşməlidirlər. Məhz bu peşəkar ünsiyyət sayəsində ölkə üzrə təhsilin səviyyəsinini qısa müddətdə artırmaq, kənd və şəhər məktəbləri arasında olan təhsil səviyyəsinin fərqini aradan qaldırmaq olar.

8. Müəllimlərlə valideyn cəmiyyəti arasında sıx, qarşılıqlı etibardan irəli gələn ünsiyyətin qurulması. Valideynlər ilk öncə müəllimin onların övladlarının şəxsiyyət kimi formalaşmasında ən əhəmiyyətli rol oynadığını dərk etməlidirlər və müəllimə göstərdikləri sayğı, hörmətlə övladlarına nümunə olmalıdırlar. Valideynindən müəliminə hörmət, ehtiram görən şagird heç zaman müəllimin sözündən çıxmaz, ona kobud münasibət göstərməz. Son zamanlar həm şagirdlərin, həm valideynlərin müəllimlərə qarşı qeyri-etik davranışlarının şahidi oluruq. Bu da birbaşa tərbiyə sisteminin çökməsinə gətirib çıxarır. Müəllimin danladığı uşağın evdə başı sığallananda uşaq hansı davranışın doğru, hansı davranışın yalnış olduğunu anlamayacaq. Kimin haqlı, kimin haqsız olduğunu araşdırmaq üçünsə, müəllim və valideyn arasında sıx ünsiyyət olmalıdır. Biz az öncə bildirdiyim kimi, müəllimlərin son 20 ildə uşaqların tərbiyə prosesində iştirakı kəskin formada məhdudlaşdılırıb. Bu məkrli siyasətlə mübarizənin əsas yollarından biri valideynlərlə müəllimlərin sıx ünsiyyəti olmalıdır. Bu uşaqların, cəmiyyətin doğru-düzgün tərbilənməsi üçün çox əhəmiyyətlidir.

Son olaraq, müəllimlərin nüfuzunun artmasında, dövlətdə və cəmiyyətdə layiqli yer tuta bilmələrində onlara dəstək olaq, haqlarının pozulmasına etiraz səsimizi ucaldaq.

Diqqətinizə görə minnətdaram!

29.07.2025-ci il
Xatirə Cəbrayılova, Moskva